**UOT32**
**https://doi.org/10.30546/ifs.2025.2(45).0143**

# ORTA ASİYADA ERMƏNİ TƏŞKİLATLARININ YARADILMASI VƏ ONLARIN “TARİXİ MİSSİYASI”

**Yeganə Baxşıyeva**
siyasi elmlər üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
ybakhshiyeva@gmail.com
https://orcid.org 0000-0001-7922-5955

**Xülasə**. Məqalə Orta Asiyada erməni təşkilatlarının Ermənistanın daxili siyasətinə təsirinin nəzəri tədqiqinə həsr olunmuşdur. Tədqiqatda Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistandakı erməni təşkilatlarının tarixi rolları, ictimai-siyasi əlaqələri, maliyyə imkanları və erməni diasporunun xalqın mədəni və siyasi həyatına təsir imkanları öyrənilmişdir. Məqalədə əsasən bu təşkilatların lobbiçilik fəaliyyəti və onların Ermənistana maliyyə dəstəyi diqqətə çatdırılır.

İşdə nəzəri fikrə istinadən qeyd edilir ki, təşkilatların lobbiçilik fəaliyyəti xarici hökumətlərdə erməni maraqlarının lobbiləşdirilməsində, xüsusən də erməni yalan və iddialarının, qondarma “erməni soyqırımı”nın tanınmasında iqtisadi yardım göstərilməsi kimi məsələlərdə mühüm rol oynayır. Onların fəaliyyəti dolayısı ilə ölkə daxilində ictimai rəyi və hökumətin siyasi prioritetlərini formalaşdıra bilir.

Xaricdəki erməni lobbi təşkilatları erməni məsələsini beynəlxalq platformalarda gündəmə gətirərək bu istiqamətdə müəyyən mənada məqsədlərinə nail olmuşlar. Bu təşkilatlar çox vaxt lobbiçilik fəaliyyəti ilə siyasi qərar qəbul edənlərlə əlaqələr qurur və erməni icmasının səsini beynəlxalq səviyyədə eşitdirmək üçün səylər göstərirlər.

Bundan əlavə, xaricdəki erməni təşkilatları təhsil və mədəniyyət, humanitar yardım və sosial xidmət sahəsində xüsusilə canfəşanlıq nümayiş etdirirlər. Onlar erməni dilini, mədəniyyətini qorumaq, yaymaq məqsədilə dil kursları, mədəni tədbirlər və festivallar təşkil edirlər. Bu, digər ölkələrdə erməni icmalarına öz kimliklərini qorumaq və gələcək nəsillərə ötürmək istiqamətində yeni imkanlar yaradır. Həmçinin erməni icmaları Ermənistanda yoxsulluqla mübarizə, səhiyyə xidmətləri, təhsilə dəstək kimi sahələrdə layihələr həyata keçirir, Ermənistanda rifahı yüksəltməyə çalışırlar.

**Məqsəd:** Orta Asiyada erməni təşkilatlarının erməni ideologiyası, yalanları istiqamətində apardığı çoxşaxəli fəaliyyətə diqqəti çəkmək.

**Metodologiya:** Məqalə - elmi metod, müqayisəli təhlil, empirik təsvir, tarixi analiz metodları ilə tədqiq olunur.

**Elmi yenilik:** Xarici dövlətlərdə erməni ideologiyasının reallaşma vasitələrinə müasir reallıqlar kontekstindən yanaşma.

**Açar sözlər:** erməni lobbisi, münaqişə, diaspora, ictimai birlik, erməni icması.

## СОЗДАНИЕ АРМЯНСКИХ ОРГАНИЗАЦИЙ В СРЕДНЕЙ АЗИИ И ИХ «ИСТОРИЧЕСКАЯ МИССИЯ»

**Егана Бахшиева**

**Резюме.** Статья посвящена теоретическому исследованию влияния армянских организаций Центральной Азии на внутреннюю политику Армении. В исследовании рассматриваются историческая роль, общественно-политические отношения и финансовые возможности армянских организаций Казахстана, Узбекистана, Кыргызстана, Туркменистана и Таджикистана. Особое внимание уделяется их способности воздействовать на культурную и политическую жизнь армянского народа. Основной акцент сделан на лоббистской деятельности указанных организаций и их финансовой поддержке политики Армении.

В статье, ссылаясь на теоретические соображения, отмечается, что лоббистская деятельность организаций играет важную роль в лоббировании интересов Армении в иностранных правительствах, особенно по таким вопросам, как экономическая помощь в признании армянской лжи и заявлений, так называемого «геноцида армян». Их деятельность может косвенно формировать общественное мнение и политические приоритеты правительства внутри страны. Армянские лоббистские организации за рубежом в определенной степени достигли своих целей, вынеся армянский вопрос на повестку дня на международных площадках. Эти организации часто выстраивают отношения с лицами, принимающими политические решения, посредством лоббистской деятельности и прилагают усилия для того, чтобы голос армянской общины был услышан на международном уровне.

Кроме того, армянские организации за рубежом активно действуют в сферах образования, культуры, гуманитарной помощи и социальных услуг. Они проводят языковые курсы, культурные мероприятия и фестивали, направленные на сохранение армянского языка и традиций. Это создает новые возможности для армянских общин в других странах для сохранения своей идентичности и передачи ее будущим поколениям. Армянские общины также реализуют проекты в Армении, связанные с борьбой с бедностью, развитием здравоохранения и поддержкой образования.

**Цель:** привлечь внимание к многогранной деятельности армянских организаций в Центральной Азии в направлении армянской идеологии и лжи.

**Методология:** статья исследована с использованием методов научного метода, сравнительного анализа, эмпирического описания и исторического анализа.

**Научная новизна:** подход к средствам реализации армянской идеологии в зарубежных странах с точки зрения современных реалий.

**Ключевые слова:** армянское лобби, конфликт, диаспора, общественное единство, армянская община

## THE CREATION OF ARMENIAN ORGANISATIONS IN CENTRAL ASIA AND ITS "HISTORICAL MISSION"

**Yegana Bakhshiyeva**

**Abstract.** The article is devoted to the theoretical study of the influence of Armenian organisations in Central Asia on Armenias domestic politics. The study examines the historical roles, socio-political relations, and financial capabilities of Armenian organisations in Kazakhstan, Uzbekistan, Kyrgyzstan, Turkmenistan and Tajikistan, and the capacity of the Armenian diaspora to influence the cultural and political life of the people. The article mainly focuses on the lobbying activities of these organisations and their financial support to Armenia.

The article notes, drowing on theoretical considerations, that organisations' lobbying activities play an important role in lobbying Armenian interests in foreign governments, especially on issues such as economic assistance in the recognition of Armenian lies and claims, the so-called "Armenian genocide." Their activities can indirectly shape public opinion and the political priorities of the government within clealy Armenia.

Armenian lobbying organisations abroad have achieved their goals to a certain extent by putting the Armenian issue on the agenda at international platforms. These organisations often build relationships with policymakers through lobbying activities and make efforts to ensure that the voice of the Armenian community is heard at the international level.

In addition, Armenian organisations abroad are particularly active in the fields of education and culture, humanitarian aid and social service. They organise language courses, cultural events and festivals to preserve and spread the Armenian language and culture. This creates new opportunities for Armenian communities in other countries to preserve their identity and pass it on to future generations. Armenian communities also implement projects in Armenia in areas such as combating poverty, providing healthcare services, supporting education, and trying to improve welfare in Armenia.

**Purpose:** To draw attention to the multifaceted activities of Armenian organizations in Central Asia in the direction of Armenian ideology and lies.

**Methodology:** The article is studied using the methods of scientific method, comparative analysis, empirical description, and historical analysis.

**Scientific novelty:** A new perspective on the mechanisms of Armenian ideology in foreign countries from the context of modern realities.

**Keywords:** Armenian lobby, conflict, diaspora, public cohesion, Armenian community.

**Giriş**

Tarixən Orta Asiyada fəaliyyət göstərən erməni təşkilatları erməni kimliyinin qorunmasını, ermənilərin başqa xalqlardan mənimsədikləri mədəni irsin erməni irsi kimi təbliğini özlərinin əsas vəzifələri hesab etmişlər. Həmçinin erməni təşkilatları Ermənistanın Orta Asiya dövlətlərində siyasi təmsilçiliyinin təmin edilməsi və həmin ölkələrdən Ermənistana humanitar yardım fəaliyyətinin həyata keçirilməsi kimi müxtəlif məqsədlərə xidmət ediblər.

Ermənistanın anti-Azərbaycan, anti-türk siyasətinin təbliği tarixən erməni təşkilatlarının fəaliyyətində əsas istiqamətlərdən olmuşdur. Tarixi düşmənçilik missiyalarını özlərindən sonrakı nəsillərə ötürən millətçi ermənilər bu gün də cinayətkar əməllərindən çəkinmirlər.

Hətta II Qarabağ müharibəsindən sonra erməni təşkilatları və icmalarının dünyanın bir sıra ölkələrində (Fransa, Böyük Britaniya, İsveç, Polşa, Avstraliya, ABŞ, Niderland, Belçikada) Azərbaycan dövlətinin səfirlikləri və müxtəlif beynəlxalq təşkilatların nümayəndəlikləri qarşısında keçirdikləri qanunsuz etiraz aksiyaları, törətdikləri cinayət aktları onların separatizmə, terrorizmə xidmət etdiyini sübut edir.

Xaricdəki erməni təşkilatları Ermənistanın daxili siyasətinə də təsir göstərir. Bu təsir onların tarixi rollarından, ictimai-siyasi əlaqələrindən, maliyyə imkanlarından və erməni diasporunun xalqın mədəni və siyasi həyatındakı əhəmiyyətindən irəli gəlir.

Orta Asiyada erməni təşkilatları tarix boyu mühüm rol oynamış və müxtəlif sahələrdə fəaliyyət göstərmişlər. Xüsusilə XIX əsrin sonlarından etibarən Rusiya imperatorluğunun Orta Asiyada yayılmış təsiri nəticəsində ermənilər bir çox sektorlarda, xüsusilə ticarət və sənayedə xüsusi canfəşanlıq ediblər.

XIX əsrin əvvəllərindən etibarən ermənilər Anadoludan Yaxın Şərqə, Yaxın Şərqdən isə müxtəlif coğrafiyalara köç etmişlər. Sovet dövründə və müstəqillik illərində ermənilərin Orta Asiyaya köçürülməsinin əsas səbəbi ağır iqtisadi vəziyyət və əlverişsiz siyasi şərait olmuşdur.

Özbəkistanda erməni lobbiçiliyi mürəkkəb mövzudur, kökləri tarixi, mədəni və geosiyasi dinamikadan qaynaqlanır. Ermənistan və Özbəkistanın birbaşa sərhədi olmasa da, iki xalq və onların diasporları arasında cəmiyyətin, siyasətin və iqtisadiyyatın müxtəlif aspektlərinə təsir edən nəzərəçarpacaq qarşılıqlı əlaqələr mövcuddur. Özbəkistanda əhəmiyyətli erməni icmaları yaranıb və bu icmalar ticarət, kənd təsərrüfatı, mədənçilik kimi sahələrdə öz töhfələrini veriblər. [8]

19-cu əsrin sonlarından ölkədə erməni din xadimləri erməni icmasının təşkilatlanmasında əhəmiyyətli rol oynamışlar. Bu məqsədlə Özbəkistanda erməni-qriqoryan icma məktəbləri yaradıldı və 1899-cu ildən burada erməni qriqorian ibadətgahı fəaliyyətə başladı. Nəticədə 20-ci əsrin əvvəllərində ölkədə erməni diasporu iqtisadi cəhətdən daha dayanıqlı oldu və onun rifahı durmadan artmağa davam etdi. 1903-cü ildə xüsusi kilsə fərmanı ilə katolikos Mkrtiç Səmərqənddəki erməni kilsəsinin səyi və nəzarəti ilə tikilmiş Tatevos Hovsepyants abidəsini təqdis etdi (13).

Həmçinin 1908-ci ildə Daşkənddə erməni qriqorian kilsəsi də tikilmişdi. 20-ci əsrin əvvəllərində burada kilsənin fəaliyyətini tənzimləyən mərkəz yaradıldı. Ermənilər tərəfindən tədricən on üç məktəb, üç uşaq bağçası, bir klub və üç kitabxana tikildi.

1991-ci ildə Özbəkistan müstəqilliyini elan etdikdən sonra Səmərqənddə Daşkənd Erməni Mədəniyyət Mərkəzi və Lis Mədəniyyət Mərkəzi yaradılmışdır. Daha sonra 2001-ci ildə Səmərqənd və Əndicandakı erməni mərkəzləri birləşdirildi. 2010-cu ilin yanvarında Səmərqənddə Erməni Milli Mədəniyyət Mərkəzinin yeni ofisi açıldı. Ölkədə erməni icmasının məqsədi ermənilərin milli kimliyini qorumaq, erməni dili və dininin geniş təbliğatını təşkil etmək idi (13).

Bu gün Özbəkistanda özbək türklərindən başqa, 120-dən çox millət yaşayır və onların hamısı Özbəkistan Respublikasının vətəndaşlarıdır. Ölkə konstitusiyası bərabər hüquqlara, azadlıqlara təminat

verir. Özbəkistanda erməni təşkilatları digər Orta Asiya ölkələrilə müqayisədə daha böyük aktivlik göstərirlər. 50 min erməni Özbəkistan vətəndaşılığını qəbul etmişdir (14).

Vaxtilə hər iki ölkənin Sovet İttifaqının bir hissəsi olması Ermənistan və Özbəkistan əhalisinin bir-birinə qarışmasını və miqrasiyasını asanlaşdırmağa kömək etmişdir. Bu tarixi əlaqə Özbəkistandakı kiçik erməni icmalarına miras qoyularaq bugünədək davam etdirilir. Özbəkistandakı erməni kilsələri, mədəniyyət mərkəzləri və məktəbləri erməni irsinin qorunması üçün mərkəz rolunu oynayır. Bu qurumlar həm də ermənilər və özbəklər arasında mədəni mübadilələri gücləndirir. Özbəkistandakı ermənilər tez-tez erməni mədəniyyətini önə çıxaran və icma əlaqələrini gücləndirən festivallar və sərgilər kimi mədəni tədbirlər təşkil edirlər. Özbəkistandakı erməni sahibkarlar və biznes liderləri yerli iqtisadiyyata töhfə verirlər ki, bu da dolayısı ilə iqtisadi siyasətə və ikitərəfli ticarət əlaqələrinə təsir göstərə bilir. İnvestisiya və biznes təşəbbüsləri çox vaxt lobbiçilik məqsədi daşıyır (2).

Özbəkistandakı erməni iş adamları və sahibkarları mədənçıxarma və kənd təsərrüfatı sahələrində möhkəmlənməyə çalışırlar. Özbəkistanın ən qədim və fəal erməni təşkilatlarından biri olan Ermənistan Ümumi Xeyriyyə Birliyi (AGBO) ermənilərin sosial və iqtisadi inkişafına dəstək verir. AGBO Ermənistanın mövqeyini gücləndirmək üçün müxtəlif maarifləndirici və mədəni tədbirlər təşkil edir (13).

Bu gün Özbəkistandakı erməni diasporu sayca azalsa da, mədəni və sosial cəhətdən fəaldır. Erməni diasporu Özbəkistanın mədəni mozaikasının mühüm hissəsi kimi mövcud olmaqda davam edir və müxtəlif fəaliyyətlərlə öz mədəni kimliyini qoruyub saxlayır.

Lakin hazırda Özbəkistandakı erməni icmasında bir çox əsaslı problemlər mövcuddur. İrəvanda keçirilən Ümumerməni Forumunda iştirak edən Özbəkistanın erməni icmasının rəhbəri Sergey Andreasov icmanın problemlərinə toxunaraq qeyd edib ki, Özbəkistanın erməni icmasının nümayəndələri erməni dilini çox az bilirlər, baxmayaraq ki, Ermənistan Daxili İşlər Nazirliyi icmanı lazımi dərsliklərlə təmin edir. “*Mən dəfələrlə Daxili İşlər Nazirliyinə müraciət etmişəm, xahiş etmişəm ki, rusdilli ermənilər üçün nəzərdə tutulmuş erməni dili və ədəbiyyatı dərsliklərini bizim icmaya göndərsinlər”* (9).

“Erməni koloniyaları” televiziya layihəsinin müəllifi Arevik Orbelyan Özbəkistanda yaşayan ermənilərlə görüşündə qeyd edib ki, bu gün erməni mədəniyyət mərkəzinin yerləşdiyi və daxilində ictimai fəaliyyətlərin həyata keçirildiyi paytaxt Daşkənddə iştirakçılar, xüsusən də gənclər azdır. O, erməni dili sinfi, tarix kurslarının mövcud olmasına baxmayaraq, iştirakçıların azlıq təşkil etdiyini vurğulayıb (4). Arevik Orbelyanın sözlərinə görə, bu gün Özbəkistanda yaşayan erməniləri Müqəddəs Filip Erməni Kilsəsi və onun keşişi Ovannes Qriqoryan birləşdirib, kilsə konsolidasiyanı, kilsə bayramları vasitəsilə birləşməyi və s. öz funksiyalarından biri hesab edir (3).

Bu mənada Özbəkistandakı Erməni Apostol Kilsəsi erməni icmasının dini ehtiyaclarına xidmət etməklə məşğuldur. Daşkənddəki Müqəddəs Qriqori İlluminator Kilsəsi kimi kilsələr isə ibadət və icma toplantılarının təşkilatçılığını həyata keçirir.

Özbəkistandakı Erməni Apostol Kilsəsi ölkədəki erməni icması arasında erməni mədəni kimliyinin qorunmasında həlledici rol oynayır. Burada təkcə dini ayinlər deyil, həm də əsasən müsəlmanların yaşadığı Mərkəzi Asiya dövlətində erməni iddialarını təbliğ edən mədəni və sosial toplantılar keçirilir.

1950-ci illərdə ermənilərin Qazaxıstana köçməsi İ.Stalinin “xalqları sürgün siyasəti”dən irəli gəlirdi. Bu dövrdə ermənilərin Qazaxıstana deportasiyası və ya məcburi köçürülməsi baş verdi. Hazırda Qazaxıstanda 25 minə yaxın erməni yaşayır. Əksəriyyət Almatıda, qalanları isə Pavlodar, Kostanay, Aktyubinsk, Karaqanda, Aktau, Astana və Atırau şəhərlərində cəmləşib (12).

Digər ölkələrdə olduğu kimi, Qazaxıstanda da erməni diasporu bir etnik qrup çərçivəsində milli simasını, həyat tərzini, adət və ənənələrini, ana dilini, inancını, tarixini və mədəniyyətini qoruyub saxlamağa imkan verən icmada birləşib (10).

2004-cü ilin 30 oktyabrında Almatıda Orta Asiyada ilk erməni mədəniyyət mərkəzi olan Nair'i Erməni Mədəniyyət Mərkəzləri Assosiasiyası açıldı, ardınca Müqəddəs Karabet erməni kilsəsinin təqdis mərasimi keçirildi. Bu gün Nair'i Erməni Mədəniyyət Mərkəzləri Assosiasiyasında birləşmiş 18 erməni icma təşkilatı fəaliyyət göstərir (1). Bu təşkilatlar Nur Sultan Almatı, Aktobe, Atırau, Aktau, Karaqanda, Kustanay, Kokşetau, Oral (Uralsk), Özkaman, Ust-Kamenoqorsk və Petropavlovsk

şəhərlərində yerləşir. Bunlara Pavlodar, Şımkend, Semeye, Taldıkorqan və Derjavinsk şəhərlərindəki binaları da əlavə etmək olar. Həmçinin erməni icma təşkilatlarının nəzdində 18 bazar günü məktəbi, 11 rəqs qrupu, 3 xor və 1 "Artest" rəsm qalereyası fəaliyyət göstərir (15).

Bundan başqa 2014-cü ilin avqustunda Almatıda "Qazaxıstan Ermənilәri İttifaqı Masis" təşkilatı qeydiyyatdan keçib. 2015-ci ildə "Masis" Qazaxıstan Xalq Assambleyasına daxil edilib. Bu gün onun tərkibinə Almatı, Nur Sultan, Aktobe, Aktau, Petropavlovsk, Semey, Derjavinsk və Kokşetau şəhərlərində fəaliyyət göstərən 8 icma daxildir (10).

Erməni diasporu Qazaxıstanda öz istəklərini mədəniyyət mərkəzləri vasitəsilə həyata keçirir. Mədəniyyət mərkəzləri erməni diasporunun inkişafına öz töhfəsini verir. Bundan əlavə, onun fəaliyyəti qismən dövlət tərəfindən maliyyələşdirilir.

Qazaxıstanda kiçik erməni Apostol Kilsələrindən biri Almatıdakı Müqəddəs Qriqori İşıqlandırıcı Erməni Apostol Kilsəsidir. O, Qazaxıstanda yaşayan ermənilər üçün mənəvi mərkəz rolunu oynayır. Bundan başqa Sadi Fort-Şevçenko şəhərinin köhnə qəbiristanlığında erməni icmasına məxsus iki ibadətgah və 2006-cı ildə Almatıda tikilmiş bina mövcuddur (6).

Türkmənistandakı erməni icması ilk dəfə 19-cu əsrin ortalarında Orta Asiyanın Rusiyaya birləşdirilməsindən sonra yaranıb. Ermənilər Aşqabad, Krasnovodsk (Türkmənbaşı), Mari (keçmiş Mərv), Türkmənabad, Nebit-Dağ (Balkanabad), Qızıllarvat, Taşqüz (Daşoğuz), Annam və s. ərazilərdə məskunlaşıblar. Hazırda Türkmənistanda təxminən 30000 erməni yaşayır.

Türkmənistanda hazırda fəaliyyət göstərən əsas erməni təşkilatı Erməni Mədəniyyət Mərkəzidir. Türkmənistanda yaşayan bütün ermənilərin dediyi kimi, ermənilərlə türkmənlər arasında münasibətlər həmişə yaxşı olub. Lakin bir çox səbəblərdən Aşqabad və Krasnovodskdakı Erməni Mədəniyyət Mərkəzləri Ədliyyə Nazirliyində rəsmi qeydiyyatdan keçə bilməyiblər.

Bundan başqa, Türkmənistanda Ermənistan Respublikasının səfirliyinin dəstəyi ilə fəaliyyət göstərən üç erməni məktəbi var, onlardan biri də Aşqabaddadır.

Eləcə də Türkmənistanda güclü neft-qaz təsərrüfatının əsasını qoyan "Türkmənneft" birliyində çoxlu sayda erməni cəmləşib. Məhz bu birlikdə çalışan ermənilər birlik vasitəsilə Ermənistana maliyyə yardımlarının təşkilini həyata keçirirlər (5).

19-cu əsrin sonlarında Tacikistana köçən ilk erməni mühacirlər əsasən sənətkarlar, tacirlər və həkimlər olub. Sovet dövründə isə burada məskunlaşan erməni iş adamları və sənayeçiləri artıq pambıq, neft, elektrik enerjisi istehsalı və hasilatının əhəmiyyətli hissəsinə sahib idilər və ticarətdə monopoliya yaratmışdılar.

1989-cu il siyahıyaalınmasına əsasən, Tacikistanda 5630 erməni yaşayırdı. Daha sonra SSRİ-nin dağılması və ölkədə başlayan vətəndaş müharibəsi ilə əlaqədar ermənilər mühacirət etməyə başladılar (5).

Bu gün Tacikistanda 3000-ə yaxın erməni yaşayır. Hazırda ölkədə erməni mədəniyyət və icma təşkilatı olan, 1989-cu ildə Düşənbədə yaradılmış "Mesrop Maştots" adlı icma təşkilatı fəaliyyət göstərir (7). Bu təşkilatı 20 il boks üzrə Tacikistan çempionu, sonra isə Sovet Tacikistanının əməkdar məşqçisi olmuş Telman Qurgenoviç Voskanyan yaradıb və hal-hazırda da ona rəhbərlik edir. Mesrop Maştots Erməni Mədəniyyət Mərkəzinin səyləri ilə 2009-cu ildə Tacikistanda bir günlük erməni məktəbi və rəqs qrupu açılıb, burada həm erməni, həm də tacik xalq rəqsləri tədris olunur. Lakin Tacikistandakı erməni diasporu digər Orta Asiya dövlətlərində olduğu kimi güclü deyil (8).

Qırğızıstanda tarixən yaşayan ermənilər əsasən sahibkarlar, sənətçilər, müəllimlər, elm adamları və həkimlər olub. 2003-cü ilin statistikasına əsasən Qırğızıstanda 1364 erməni, əsasən, ölkənin paytaxtı Bişkekdə məskunlaşıb. Hazırda Çuy, Oş və Cəlal-Abad bölgələrində də ermənilər yaşamaqdadırlar.

Qırğızıstanda yaşayan ermənilər əsasən humanitar, mədəni tədbirlərin keçirilməsi sahəsində ixtisaslaşmış və bu istiqamətdə erməni mədəniyyətinin təbliğini həyata keçirirlər. Məsələn, 1994-cü ildən ermənilər dövlətin təşəbbüsü ilə yaradılmış "Qırğızıstan Xalq Birliyi" ictimai təşkilatının üzvüdürlər. 1996-cı ildə Bişkekdə Qırğızıstan erməniləri tərəfindən "Kervan" adlı qeyri-hökumət təşkilatı yaradılıb və hazırda fəaliyyətini davam etdirir. Bundan başqa, 1999-cu ildə Qırğızıstan Respublikasında yaşayan erməni əsilli alim Qriqori Balyanın "Qırğızıstandakı ermənilər" kitabı nəşr edilmişdir (11).

Lakin 2010-cu ildə ölkədə ermənilərin sayı xeyli azalıb. Qırğızıstan Respublikası Milli Statistika Komitəsinin 2020-ci il məlumatına görə, ölkədə rəsmi olaraq cəmi 788 erməni yaşadığı qeyd olunur. Qırğızıstanda erməni icmasının həyatında iştirak etməyən 1500 müsəlman ermənilər - həmşinlər də yaşayır.

Qırğızıstanda hazırkı erməni diasporunun fəaliyyəti tanınmış qırğız iş adamı Henrik Balyanın səyləri ilə bağlıdır. O, Qırğızıstan Xalqlar Assambleyasının sədri Tokon Mamıtova erməni diaspor qurumlarını rəsmi səviyyədə “diriltmək” təklifi ilə çıxış etmiş və onun təklifi Assambleya tərəfindən müsbət qarşılanmışdı (11).

2017-ci ilin martında Qırğızıstanda yaşayan erməni iş adamları “Ararat Erməni İcması” adlı yeni ictimai təşkilat yaradıb və rəsmi qeydiyyatdan keçiriblər. Onların səyi ilə “Ermənistan evi” təmir olunmuş, gündüz məktəbi açılmış, rəqs qrupu yaradılmış, erməni kitabxanası təmir edilmişdi.

Orta Asiyada fəaliyyət göstərən erməni təşkilatlarının tədqiqi zamanı belə nəticəyə gəlmək olar ki, regionda ermənilər iki qrupa ayrılıblar. Tarixən bölgədə məskunlaşan ermənilər və bölgəyə sonradan gələn ermənilər. Orta Asiyada yaşayan ermənilər müxtəlif ümumi mədəni dəyərlərə və oxşar kimliklərə malikdirlər. Amma təəssüf ki, onlar təkcə öz mədəni dəyərlərini qorumaq üçün deyil, həm də vətənləri Ermənistanın tələbi ilə qondarma “erməni soyqırımı”nı tanımaq üçün çalışırlar.

**Nəticə**

Tədqiqat işinin araşdırılması zamanı belə nəticəyə gəlinmişdir ki, tarixən erməni yalanlarının böyük vüsət aldığı bir dövrdə onların çoxsaylı və çoxşaxəli təşkilatları erməni iddialarının gerçəkləşməsi naminə əsaslı işlər görmüşdür.

Məlum olduğu kimi, ermənilər özlərini tanıyandan ən böyük düşmənləri kimi, türkləri görüblər. İki əsrdən çox onların Azərbaycan və Türkiyədə müxtəlif vaxtlarda törətdikləri terror aktları və soyqırımları buna əyani sübutdur. Bu azmış kimi, hər zaman erməni lobbisi dünyada özünü məzlum millət kimi göstərərək, haqlı çıxarmaq istəyiblər. Hətta bir çox dövlətləri türklərin onları guya “soyqırım”a məruz qoyduqlarına inandırıblar.

Ermənilər öz hüquq və mənafelərini gücləndirmək məqsədilə Orta Asiya dövlətlərində milli təşkilatlanma prosesində müəyyən mənada məqsədlərinə çatıblar. Bu lobbiçilik siyasətində ictimai dərnək və cəmiyyətlərin təcrübəsi əsasında erməni milli təşkilatları və partiyaları yaradılıb. Bütün erməni təşkilatlarını birləşdirən vahid məqsəd Ermənistanın beynəlxalq səviyyədə effektiv təmsil olunmasına töhfələr vermək və güclü diaspor şəbəkəsi yaratmaq olub.

Ermənilərin eləcə də yaşadıqları ölkələrin kütləvi informasiya vasitələrinə təsir göstərmək imkanları olub. Onlar fəaliyyətlərində Azərbaycanı hədəf seçib və Azərbaycana qarşı fobiya yaradıblar.

Dünya dövlətlərinin şahidi olduğu və Ermənistanın da mütləq olaraq bildiyi kimi bu məsələdə Azərbaycan həm tarixə, həm beynəlxalq hüquqa, həm də ədalətə əsaslanır. Lakin ermənilərin yürütdüyü təcavüzkar siyasət və iddialar heç nəyə əsaslanmır.

Eləcə də Orta Asiyadakı erməni təşkilatlarının həm daxili fəaliyyəti, həm də qlobal diaspora təsir qüvvəsi günbəgün sarsılmaqdadır. Belə ki, Ermənistan hökuməti son on ildə təşkilat-diaspor birliyindən, iqtisadiyyatı bərpa etmək potensialından istifadə edə bilmir. Bu səbəbdən bir sıra erməni sahibkarlar investisiya qoymaqdan geri çəkiliblər.

Üstəlik, Ermənistan diasporunun digər mühüm təsir vasitəsi olan İran və Suriyadakı ermənilərlə bağlı ciddi problemlər mövcuddur. Bu dövlətlərdə yaşayan erməni azlıqları siyasi rejimin artan təzyiqləri ilə üz-üzə qalıblar (16).

Bununla yanaşı, xarici ölkələrdə ermənilərin azərbaycanlılara qarşı əsassız iddiaları, təcavüzkar əməllərinə qarşı bəzi beynəlxalq təşkilatların, xüsusilə beynəlxalq QHT-lərin, o cümlədən “Freedom House”, “Amnesty International”, “Human Rights Watch”, “Trensparency İnternational”, “Free Press”, “Mercy Corps”, “Beynəlxalq Böhran Qrupu”, “Sərhədsiz Repartyorlar”, OCCRP və digər bu kimi qurumlar və bir sıra Qərb təşkilatlarının səssizliyi acı təəssüf doğurur. Hansı ki, sözügedən təşkilatlar ermənipərəst qüvvələrdən faydalanaraq xüsusilə II Qarabağ müharibəsində Azərbaycan əleyhinə informasiya müharibəsi başlatmış və dünya birliyini sərsəm ermənisayaq bəyanatlara inanmağa cəhd göstərmişlər.

## İstifadə olunmuş ədəbiyyat


1. About AGBU". Armenian General Benevolent Union. Archived from the original on 27 August 2008. Retrieved 2008-08-12. https://agbu.org/
2. Armenian diaspora, its role and influencehttps://www.refworld.org/reference/country-rep/gbrfco/2015/en/104642
3. Armenian national Committee of America. About ANCA https://anca.org/about-anca/
4. Artsakh Relief.Our fight for hope.https://agbu.org/artsakh-relief
5. Assembly's 2024 D.C. & Yerevan Summer Internship Programs Come To A Successful Closehttps://www.armenian-assembly.org/post/assembly-s-2024-d-c-yerevan-summer-internship-programs-come-to-a-successful-close
6. Boghos Nubar Pasha – Biography" 25 October 2015. https://armenian-history.com/bogos-nubar-pasha/
7. HayDzayn Breaking news from Armeia and a whole lot more". haydzayn.com. Archived from the original on 2018-12-28.

https://politikaakademisi.org/2021/04/17/orta-asyada-ermeni-diyasporasi/

8. Orta Asya’da Ermeni Diyasporası
9. Role of national and cultural centers of Uzbekistan in public life Ochilova NigoraRuzimuratovnafile:///C:/Users/HUAWEI/Downloads/Vol_16_N_05_17.pdf
10. Адилбаев Жалгас Жумаевич. Сотрудничество между Республикой Казахстан и Республикой Армения: современное состояние и перспективы (1991-2016 гг.) Ереван, 2018 год. С-67.
11. Министерство иностранных дел Республики Армения. Двусторонние отношения Киргизии. 07.02.2015г. https://www.mfa.am/ru/bilateral-relations/kg, (27.03.2021).
12. Офис главного уполномоченного по делам диаспоры ра, Diaspora – Kazakhstan, http://diaspora.gov.am/ru/pages/19/kazakhstan, (25.03.2021).
13. Этнический атлас Узбекистана. Институт «Открытое Общество» — Фонд содействия — Узбекистан, 2002. Совместное издание «ИООФС — Узбекистан» и ЛИА Р. Элинина, 2002 г. Арманлар (Этнические меньшинства. Армяне), (29.03.2021).
14. Ուզբեկստանի հայ համայնք. Մեզ անհրաժեշտ է զգալ հայրենիքի ջերմությունըhttps://news.am/arm/news/74715.html
15. Ուզբեկստանի հայերը պահպանում են հայկական ավանդույթները. «Սփյուռքի ձայնը»https://hy.armradio.am/archives/390635


**Rəyçi: ps.f.d.,dos. Südabə Hüseynova**